Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 138 (1266) 28 iyul - 29 iyul 2016-cı il

# GÖYÇAY – ONU SEVƏNLƏRİN ŞƏHƏRİ!

(əvvəli ötən saylarımızda)

> “...Rayonun gələcək inkişafı ilə bağlı konkret proqramlar var. Xüsusilə indi infrastruktur layihələri icra edilir. Kənd yollarının tikintisinə vəsait ayrılır. Sosial obyektlər tikilir. Ölkəmizin uğurlu inkişafı regionların inkişafından böyük dərəcədə asılıdır”.
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

**”Azərişıq” Səhmdar Cəmiyyəti tərəfindən rayonun elektrik təsərrüfatının keçən ilin iyun ayından apardığı yenidənqurma işləri hesabat dövründə də davam etdirilmiş, cəmiyyət tərəfindən seçilmiş podratçı təşkilatlar tərəfindən ötən müddət ərzində 26 müasir tipli transformator məntəqələri inşa edilmiş, şəhərdə Potu, Qarabaqqal və Bığır kəndlərində elektrik xətlərinin SİP kabellərlə əvəz olunması işlərinə başlanılmış 42 km-dən artıq SİP kabel çəkilmiş, 2000 yaxın yeni metal dayaq basdırılmışdır. Cari ilin ötən dövrü ərzində rayonun İnçə, Alpout, Qəbələ-Müskürlü və Müskürlü kəndlərinə təbii qaz verilişi təmin edilmiş, təbii qazdan istifadə edən yaşayış məntəqələrinin sayı 35-ə çatdırılmışdır. Hazırda daha 12 kənd yaşayış məntəqəsində qazlaşma işləri aparılır.**

2016-cı ilin yanvar-iyun aylarında rayon büdcəsinin mədaxil hissəsinə 107,6 faiz, məxaric hissəsinə 97,5 faiz əməl edilmişdir.

Hesabat dövründə şəhər təsərrüfatının qaydaya salınması, küçə və meydanlarının abadlaşdırılması istiqamətində müəyyən tədbirlər görülmüşdür.

Şəhərin bütün küçələrindən məişət tullantıları təsdiq edilmiş qrafikə uyğun toplanır, su ötürən bərələr tullantılardan təmizlənir. Təmizlik işləri ilə bağlı hər həftə təşkil edilən ümumrayon iməcilikləri yaxşı səmərə verir. Şəhərin mənzil fondunun qaydaya salınması istiqamətində əməli tədbirlər görülür, ictimai həyətlərdə lazımi qayda yaradılır, Salyan qəsəbəsi adlanan ərazidə, çoxmənzilli binaların həyətlərində təmizlik işləri aparılmış, həyətlərdə uzun illərdən bəri yığılmış tullantılar çıxarılmış, yararsız çəpərlər sökülmüş, ağaclar budanmış və ərazi kol-kosdan təmizlənmişdir. Şəhər küçələrinin işıqlandırılması istiqamətində tədbirlər davam etdirilmiş, bir sıra küçələrin gecə işıqlanması bərpa edilmişdir. Hesabat dövründə şəhərin Heydər Əliyev prospektində, Z.Bünyadov, Nizami, Həbibi, Xətai, M.Muradov küçələrində, şəhər qəbirstanlığına aparan yolda, bir sıra çoxmənzilli binaların həyətində yeni asfalt örtüyü salınmışdır.

Göyçay şəhərinə şərq və qərb istiqamətində girişlərdə müasir giriş qapılarının quraşdırılması üçün hazırlıq işlərinə başlanılmışdır.



### *Park və xiyabanların yeni dövrü*

Rayonda park və xiyabanların, mövcud bağların abadlaşdırılması istiqamətində də xeyli işlər görülmüş, Ə.Kərim adına park və şəhidlər xiyabanında lazımi səliqə-səhman yaradılmış, parkın suvarılması ilə bağlı problem həll olunaraq suvarma üçün yeni su nasosu alınmışdır. Şəhərin ekoloji və sanitar vəziyyətinə mənfi təsir göstərən ərazidən keçən suvarma arxlarının lil və çöküntülərdən təmizlənməsi işlərinə başlanılmışdır.

Kənd yaşayış məntəqələrində də abadlıq, quruculuq işlərinin aparılması, əhalini narahat edən problemlərin aradan qaldırılması istiqamətində bir sıra tədbirlər görülmüşdür.

2016-cı ilin iyun ayının 12-də rayonun QaramərYəm və Aşağı QaramərYəm kənd inzibati ərazi dairələrinin yaşayış məntəqələrinə təbii fəlakət nəticəsində dəymiş ziyanın aradan qaldırılması üçün operativ tədbirlər görülmüş, QaramərYəm kəndinin ərazisində sel zamanı uçmuş iki körpü bərpa edilmiş, kəndarası yollar çınqıl tökülərək təmir edilmişdir. Sel sularının yararsız vəziyyətə saldığı elektrik dirəkləri gün ərzində dəyişdirilmiş və kəndə elektrik verilişi bərpa edilmişdir. Aşağı QaramərYəm kəndində Dəvə batan çayı üzərində selin dağıtdığı körpüdə əsaslı bərpa-tikinti işləri aparılmış və bu günlərdə həmin körpünün açılış mərasimi olacaqdır. Kənd sakinlərinin müraciəti nəzərə alınaraq QaramərYəm-Müsüslü avtomobil yolunun kəndin



ərazisindən keçən hissəsində avtomobil dayanacağı inşa edilib.

Qısa müddət ərzində Yeniarx, İnçə və Çaxırlı kəndlərində suvarma arxları əhalinin müraciətləri nəzərə alınaraq lil və çöküntülərdən təmizlənib. Potu kəndinə suvarma suyunu ötürən arxın bərpası üçün müvafiq tədbirlər görülüb. Ulaşlı-şıxlı kəndinin içməli su ilə təmin edən artezian quyusunun transformatoru dəyişdirilərək daha güclü transformator quraşdırılıb. Son iki ayda rayonun kəndlərində istifadəyə yararsız 30-a yaxın elektrik dirəyi dəyişdirilib. Yeniarx kənd uşaq bağçasında, Potu kənd həkim məntəqəsində cari təmir işləri aparılıb. Rayonun Çərəkə və Qaraman kəndlərində Qarabağ müharibəsi əlilləri üçün 3 və 2 mənzilli fərdi yaşayış evləri istifadəyə verilib.

Hesabat dövründə əhalinin məşğulluğunun artırılması, yeni iş yerlərinin açılması və ilk növbədə sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşların işlə təmin olunması istiqamətində müəyyən tədbirlər həyata keçirilmiş, 784 yeni iş yeri açılmışdır. Bu iş yerlərindən 486-na rayon Məşğulluq Mərkəzinin göndərişi ilə sosial müdafiəyə daha çox ehtiyacı olan vətəndaşlar qəbul olunmuşlar.

### *Uğur strategiyası*

**Göründüyü kimi, Göyçayda bütün məsələlər sistemli şəkildə öz həllini tapmaqda, inkişafa yönəlik tədbirlərin istiqamətləri məqsədəuyğun şəkildə müəyyənləşməkdədir. Bütün sahələrdə intensivlik diqqəti cəlb edir. Rayon rəhbərliyi uğurlu bir missiyanı sanki hər gün daha mükəmməl formada zənginləşdirməyə çalışır. Sakinlər belə bir üstün yanaşmanı sevinclə qarşılayır və bütün tədbirlərə həvəslə qoşulurlar.**

*Məzahir ƏHMƏDZADƏ*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ